# «İSRA kursları»nda Novruz şənliyi

Elmin və texniki tərəqqinin sürətlə inkişaf etdiyi indiki şəraitdə şagirdlər orta məktəblərdə yiyələndikləri biliklərlə tam kifayətlənmirlər, təhsillərini daha da artırmaq üçün fərdi və ya qrup şəkilli əlavə təhsil ocaqlarına üz tuturlar. Buna 9, 10, 11-ci sinif şagirdləri arasında daha çox ehtiyac duyulur. Məktəbdən əlavə hazırlıqda özəl təhsilin, eləcə də bu cür peşəkar kursların yeri və rolu danılmazdır. Qəbələdə 2006-cı ildən fəaliyyətə başlayan "İSRA kursları" da məhz bu zərurətdən yaranmışdır. Kursun üstünlüyü ondadır ki, tədris prosesində vaxt itkisinə yol verilmir. Bütün fənlər eyni məkanda tədris olunur. Kurslara nəinki Qəbələ, eləcə də ətraf rayonlardan-Oğuz və İsmayıllıdan da dinləyicilər cəlb olunmuş, onlar yüksək biliklərə yiyələnərək sonralar ali məktəb tələbəsi adını qazanmışlar.

Fəaliyyətə başladığı ilk ildən "İSRA kursları" nailiyyətləri ilə fərqlənmişdir. Uğurları isə illər ötdükcə artmışdır. Belə ki, kurslara dinləyici axını 2007-ci ildə 51, 2008-ci ildə 65, 2009-cu ildə 75, 2010-cu ildə 81, 2011-ci ildə 80, 2012-ci ildə isə 93 faiz olmuşdur. Kursun müdavimləri demək olar ki, respublikanın müxtəlif ali məktəblərində təhsillərini davam etdirirlər. Bakı Dövlət Universiteti, Texniki Universitet, Neft Akademiyası və digərləri bu qəbildəndir.

"İSRA kursları"nda təcrübəli, savadlı və çox mehriban pedaqoji kollektiv cəmləşmişdir. Onlar öz biliklərini kursun dinləyicilərinə sevə-sevə, həvəslə, xəsislik çəkmədən öyrədirlər.





Bildiyimiz kimi Qəbələ turizm diyarıdır. Rayonumuza hər il çoxsaylı turist axını olur. Buna görə də gələn qonaqlarla ünsiyyət qurmaq üçün dil öyrənməyə ehtiyac duyulur. Bunu nəzərə alaraq kurslarda ingilis və rus dillərinin öyrənilməsinə də ciddi fikir verilir.

Bu günlərdə rayonumuzda İsmayıl bəy Qutqaşınlının adını daşıyan şadlıq sarayında keçirilən Novruz şənliyi də məhz "İSRA kursları"nın müəllim və daimi dinləyicilərinin təşkilatçılığı və bilavasitə yaxından iştirakı ilə ərsəyə gəlmişdi.

Tədbir başlanmazdan əvvəl salonda Dövlət himnimiz səsləndi.

Sonra yuxarıda deyilən uğurları tədbirdə səsləndirən kursun müəllimi Sadiq Cabbarlı qonaqları və iştirakçıları bir daha salamladı, hamını Novruz bayramı münasibətilə ürəkdən təbrik etdi, buraya toplaşanlara əminamanlıq, xoş əhval-ruhiyyə və xoş ovqat arzuladı.

Tədbirin aparıcıları Təranə və Orxan tamaşaçıların ovqatına şirinlik qatdılar. Birlik, qardaşlıq, bolluq, bərəkət və firavanlıq bayramı olan Novruzun gəlişinin məhz gecə ilə gündüzün bərabərləşdiyi bir məqama düşdüyünü xatırladan aparıcılar Şərq təqvimi ilə yeni ilin başlandığını bildirən yaz fəslinin xalqımızın daha xoş uğurlu gələcəyinə işıqlı qapı açacağını vurğuladılar.

Kosa, Keçəl və Bahar qızın səhnəyə gəlişi bayramı daha da rövnəqləndirdi. Kosa və Keçəlin məzəli zarafatları salonu gülüşlərə qərq etdi.

Bir-birindən ritmik oyun havaları qonaqlarda rəqs etmək həvəsi yaratdı.

"İSRA kursları"nın rəhbəri Bünyad Şahvələd dəvəti qəbul edib şənliyə gələn qonaqlara təşəkkürünü bildirdi.

Tədbirdə habelə intellektual bilik yarışı keçirildi və qaliblər mükafatlandırıldı.

Kursun abituriyent sektoru üzrə direktor müavini Mehman İbrahimzadə, tədris işləri üzrə direktor müavini Ruslan Zakirov tədbirin nümunəvi təşkilində xüsusi əmək sərf etmişdilər.

Müdavimlərin "Əl işləri", "İnşa yazıları", "Kitab qiraəti" müsabiqələrinin, futbol turnirinin qalibləri mükafatlandırıldı.

Kursun dinləyiciləri arasında keçirilən sorğu anketin yekununa görə «Ən çox sevilən müəllim» adına kimya fənnini tədris edən Ramid Rəşidov layiq görüldü.

Rayon təhsil şöbəsinin metodisti Aslan Şirazov, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin direktoru Qətibə Abbasova, ali məktəblərə qəbul zamanı ən yüksək bal toplayan Çinarə Əlizadə və digərləri müxtəlif naminasiyalarda mükafatlara layiq bilindilər.

Bayram tədbirinə dəvət almış qonaqlardan "Əməkdar müəllim" Fərman Əzizli, rayon təhsil şöbəsinin nümayəndələri Rasim Bayramov, Aslan Şirazov, Soltannuxa kənd inzibati ərazi nümayəndəsi Roman Mustafayev və başqaları çıxış edərək kollektivə xoş duyğularını çatdırdılar.

Yam-yaşıl səmənilərlə bəzədilmiş, ləziz təamlı şirniyyatlar düzülmüş stollar arxasında keçən bayram şənliyi gün boyu davam etdi.

Ruzi-bərəkətli Novruz bayramınız mübarək, **ƏZİZ QƏBƏLƏLİLƏR!**

**Miri RƏHİMOV,**
**"Qəblə"nin əməkdaşı.**

# Sağlamlığı məhdud olan uşaqlara qayğı

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi Novruz şənliyini "Qəbələ" oteldə keçirmişdir. Novruz şənliyində 62 nəfər sağlamlıq imkanları məhdud olan uşaqlar, onların valideynləri iştirak etmişlər.

Novruz şənliyində RİH başçısının ictimai, siyasi və humanitar məsələlər üzrə müavini Ətayə Osmanova, Qızıl Aypara Cəmiyyəti Qəbələ bölməsinin sədri Sədaqət Byayramova, Zarağan İnzabati Ərazi nümayəndəsinin müavini Sənubər Əhmədova, "Qafqaz" Sport otelin kadrlar şöbəsinin müdiri Ziyad Orucov, QHT resurs təlim mərkəzinin nümayəndəsi Şəmsiyə Əzimova iştirak etmişlər.



Tədbiri Qəbələ UADM-in direktoru R. Mahmudova açaraq görülmüş işlərdən danışdı, sağlamlıq imkanları məhdud olan uşaqları, valideyinləri və tədbirdə iştirak edən qonaqları qarşıdan gələn Növruz Bayramı münasibətilə təbrik etdi. Tədbirdə iştirak edən musiqiçilər sağlamlıq imkanları məhdud olan uşaqların şənlənməsi üçün rəngarəng musiqi proqramı ilə çıxış etdilər. Uşaqlarla birlikdə qonaqlar və valideyinlər rəqs etdilər və uşaqları şənləndirdilər.

Tədbirin sonunda sağlamlıq imkanları məhdud olan uşaqların ailələrinə ərzaq payı hədiyyə edilmişdir.

**Hökumə İSMAYILOVA,**
**Qəbələ UADM-in psixoloqu.**
**Fotolar S. Umuyevindir**

# Hacıalılı kənd uşaq bağçasında

Hacıalılı kənd uşaq bağçasında Novruz bayramı münasibətilə şənlik keçirilmişdir. Şənlik Hacıalılı kənd İnzibati Ərazi Nümayəndəliyi və uşaq bağçasının kollektivi tərəfindən təşkil olunmuşdur. Tədbiri giriş sözü ilə Hacıalılı kənd inzibati ərazi nümayəndəsi Pərviz Sabirli açdı. O tədbirdə iştirak edən valideynləri və uşaqları Novruz bayramı münasibətilə təbrik etdi. Çıxışında bildirdi ki, Hacıalılı kənd uşaq bağçası 2013-cü ilin yanvar ayında cari təmir olunaraq, nümunəvi şəkildə fəaliyyətə başlayıb. Bağçanın təmir olunaraq istifadəyə verilməsinə görə Hacıalılı kənd sakinləri, valideynlər və ziyalılar adından rayon rəhbərliyinə minnətdarlığını bildirdi.

Hazırda bu məktəbəqədər müəssisə öz işində əsaslı dönüş yaradaraq nümunəvi bağçalardan birinə çevrilmişdir. Bu gün nəinki Hacıalılı kənd sakinləri, həm də qonşu Çarxana, Şamlı, Mamaylı kəndinin sakinləri də öz uşaqlarını bu bağçaya gətirməyə böyük maraq göstərirlər. Pərviz Sabirli çıxışının sonunda bağçanın fəaliyyətinə uğur arzuladı və belə gözəl bayram tədbirlərinin bundan sonra da davam edəcəyini bildirdi.

Sonra bağçanın müdiri Məlahət Əzizova çıxış etdi. O, Novruz bayramının əhəmiyyətindən geniş söhbət açdı və balaca fidanlara can sağlığı arzuladı.

Daha sonra uşaqlara Hacıalılı kənd inzibati ərazi nümayəndəliyi və uşaq bağçası tərəfindən hədiyyələr verildi.

Şənlik şən rəqslər, mahnılar və şerlərlə davam etdirildi. Uşaqların nümayiş etdirdiyi bilik və bacarıqları tədbirdə iştirak edən hər kəsin zövqünü oxşadı.

**Azər QƏDİROV,**
**Hacıalılı kənd İƏN-in müavini.**